*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 67-75* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.2.67*

**JANR, STRUKTUR, FORMA**

# Məsihi Təbrizi şeirinin vəzni

**Pəri Hümbətova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: hasanlipari@gmail.com
Orcid: 0000-0001-9707-7722

**Annotasiya.** Divan ədəbiyyatında ahəng yaradan əsas poetik ünsürlərdən biri vəzndir. Klassik ədəbiyyatın tədqiqi göstərir ki, hər bir şairin ədəbi irsində əruz vəzni xüsusi yer tutur. Bu baxımdan Məsihi Təbrizi irsi xüsusi olaraq diqqəti cəlb edir. Şairin irsi üzərində aparılan müşahidələr göstərir ki, o öz şeirlərini əruz vəznli Azərbaycan şeirində işlənən 12 bəhrin 9-da qələmə almışdır. Məsihinin istifadə etdiyi bəhrlər rəməl, həcəz, rəcəz, mütəqarib, müzare, müctəs, xəfif, səri və kamildir. Ədibin daha geniş müraciət etdiyi bəhrlər sırasında ilk yeri rəməl bəhri tutur. Məqalədə Məsihi Təbrizinin müraciət etdiyi qəliblər kəmiyyət və keyfiyyət üzrə qruplaşdırılmış, nümunələrlə əsaslandırılmışdır. Eyni zamanda Məsihi rübailəri də vəzn baxımından diqqəti cəlb edir. Şair qələmə aldığı bütün rübailəri əxrəb vəznində yazmışdır. Tədqiqat zamanı məlum olur ki, şairin rübailərinin misralarında vəzn baxımından müxtəliflik vardır. Şairin rübailərində yalnız bir vəzndən istifadə olunan nümunələrlə yanaşı, iki və daha artıq vəzndən istifadə olunan örnəklərə də rast gəlinir.
**Açar sözlər:** Məsihi Təbrizi, vəzn, bəhr, təfilə, qəlib, rübai

**Məqalə tarixçəsi:** göndərilib – 08.10.2025; qəbul edilib – 28.10.2025

# The metre of Masihi Tabrizi's poetry

**Peri Humbetova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: hasanlipari@gmail.com
Orcid: 0000-0001-9707-7722

**Abstract.** One of the main poetic elements that creates harmony in classical literature is meter. The study of classical literature reveals that *aruz* meter occupies a special place in the literary legacy of each poet. In this regard, the literary heritage of Masihi Tabrizi draws particular attention. Observations on the poet's work show that he composed his poems using 9 out of the 12 *bahr*s (metrical types) employed in Azerbaijani poetry written in *aruz* meter. The *bahr*s used by Masihi include *ramal*, *hajaz*, *rajaz*, *mutaqarib*, *muzare*, *mujtas*, *khafif*, *sari'*, and *kamil*. Among these, *ramal* is the most frequently employed *bahr*. This article classifies the poetic forms used by Masihi Tabrizi both quantitatively and qualitatively, supported with examples. His *rubais* (quatrains) also attract attention from the perspective of meter. All of his *rubais* were composed using the *akhreb* meter. The study reveals that there is metrical variety within the lines of the poet's *rubais*. In addition to examples where a single meter is used consistently, there are also *rubais* in which two or more meters appear.
**Keywords:** Masihi Tabrizi, meter, bahr (prosodic measure), tafilah (metrical foot), poetic form, rubai

**Article history:** received – 08.10.2025; accepted − 28.10.2025

## Giriş / *Introduction*

Divan ədəbiyyatında vəzn ahəng yaradan əsas poetik ünsürlərdən biridir. Bildiyimiz kimi, divan ədəbiyyatında müraciət edilən əsas vəzn əruz olmuşdur. "Əruz vəzni — hecaların uzun və ya qısa, açıq və ya qapalı olmasına əsaslanan, hecaların müəyyən bir qaydaya uyğun şəkildə düzülərək ahəngin təmin olunduğu nəzm ölçüsüdür. İskəndər Palanın sözləri ilə desək, "Çadırın ortasına sancılan dirəklər kimidir. Bir çadırı dirəklər necə ayaqda saxlayırsa, divan ədəbiyyatını da ayaqda saxlayan ən böyük amil əruzdur" [6, s.2]. Əruz yalnız ritm, ahəng yaradan vasitə deyil, eyni zamanda estetik dünyagörüşünün ifadəsidir. İlk dəfə ərəb ədəbiyyatında yaranan bu vəzn İran, daha sonra isə Azərbaycan ədəbiyyatına keçərək divan şeirinin əsas ünsürünə çevrilmişdir. Təsadüfi deyil ki, əruz vəznində bədii əsərlər qələmə almaq bir ənənəyə çevrilmiş, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Xaqani Şirvani, Məhəmməd Füzuli kimi dahI sənətkarlarımız bu vəzndə gözəl bədii nümunələr qələmə almışdır. Məsihi Təbrizi də ənənəyə sadiq qalaraq "Divan"ına daxil olan bütün şeirləri əruz vəznində qələmə almışdır.

## Əsas hissə / *Main part*

Məsihinin "Divan"ının mətnini incələmiş türk tədqiqatçısı Şevket Baştürk şairin şeirlərinin vəzninə də diqqət yetirmiş, istifadə olunmuş əruz bəhrlərini təsnif etmişdir [5, s.5-6]. Şairin irsi üzərində aparılan müşahidələr göstərir ki, o öz şeirlərini əruz vəznli Azərbaycan şeirində işlənən 12 bəhrin 9-da qələmə almışdır. Məsihinin istifadə etdiyi bəhrlər rəməl, həcəz, rəcəz, mütəqarib, müzare, müctəs, xəfif, səri və kamildir.

Məsihi şeirinin vəzn xüsusiyyətləri ilə bağlı bir neçə məqama diqqət yetirək. Birinci məqam şairin istifadə etdiyi qəliblərin kəmiyyəti ilə bağlıdır. Bu məsələ ilə bağlı tədqiqatçı Ataəmi Mirzəyev yazır: *"Əruz vəznli şeirlərdə təfilə bölümə, qəlib isə misraya bərabərdir. Eləcə də təfilə qəlibin, bölüm isə misranın vahididir. Təfilə misra bölümlərinin vəznini göstərdiyi kimi, qəlib də misranın vəznini göstərir. Bəhrlərin növündən asılı olaraq, hər misranın qəlibi müxtəlif sayda təfilələrdən ibarət ola bilər. Bu baxımdan misralar (qəliblər) bölüm kəmiyyəti üzrə üç qrupa bölünür: dördbölümlülər, üçbölümlülər və ikibölümlülər"* [2, s.190]. Qeyd edilənlərə əsasən, Məsihi şeirlərində istifadə edilən qəlibləri də kəmiyyət üzrə qruplaşdıra bilərik. Şairin əsərlərinin vəzn baxımından tədqiqi göstərir ki, onun qələmə aldığı şeirlərdə ikibölümlü nümunəyə rast gəlinmir. O yalnız dördbölümlü və üçbölümlü qəliblərdən istifadə etmişdir.

1. Dördbölümlülər. Məsihinin şeirləri üzərində aparılan müşahidələrə və Baştürk Şevketin tədqiqatlarına əsasən, deyə bilərik ki, Məsihi "Divan"ında rəməl, həzəc, müzare, mütəqarib, müctəs, rəcəz, səri və kamil bəhrlərinə aid 14 dördbölümlü qəlibə müraciət etmişdir [5, s.5-6]. Məsələn:

| | | | |
|---|---|---|---|
| Ol ki, getməy- | dür zəmirüm- | din xiyalun- | dur sənün, |
| Ol ki, bulmay- | dur mənqa ru- | zi visalun- | dur sənün. [4, s.97] |
| *fAilAtün* | *fAilAtün* | *fAilAtün* | *fAilün (rəməl II növ)* |

***

| | | | |
|---|---|---|---|
| Ta sərvi- | xuramanum | gülzarə | xüram etmiş, |
| Gülzari- | xüramını | xublarğə | həram etmiş. [4, s.86] |
| *məf'Ulü* | *məfA'İlün* | *məf'Ulü* | *məfA'İlün (həzəc IX növ)* |

2. Üçbölümlülər. Yenə Məsihinin şeirləri üzərindəki müşahidələrə və Baştürk Şevketin tədqiqatlarına əsaslanaraq deyə bilərik ki, Məsihinin "Divan"ında rəməl, həzəc, müzare, xəfif və səri bəhrlərinə aid 5 üçbölümlü qəlibdən istifadə olunmuşdur [5, s.5-6]. Məsələn:

| | | |
|---|---|---|
| Nihali-qəd- | din, ey sərv- | səmənbər, |
| İrür nəxli | ki, bermişdür | səmənbər. [4, s.75] |
| *məfA'İlün* | *məfA'İlün* | *fə'Ulün (həzəc II növ)* |

***

| | | |
|---|---|---|
| Ey güli-gül- | şəni-cəfa- | kari, |
| Kim iməs cüz | cəfa sənqə | kari. [4, s.132] |
| *fA'ilAtün* | *məfA'İlün* | *fə'lün (xəfif II növ)* |

Məsihinin istifadə etdiyi qəlibləri keyfiyyət baxımından da qruplaşdıra bilərik: 1. Eyni təfilənin təkrarından yarananlar; 2. İki müxtəlif təfilədən yarananlar; 3. Üç müxtəlif təfilədən yarananlar; 4. Dörd müxtəlif təfilədən yarananlar. Şairin "Divan"ından götürülmüş nümunələr əsasında bu qruplara nəzər salaq.

| | | | |
|---|---|---|---|
| Hicran yetən- | də gecələr | irür mənqa | qəmxar(ı) qəm, |
| Ağzum quru- | sa nitkürür | bu dideyi- | xunbar(ı) nəm. [4, s.105] |
| *müstəf'ilün* | *müstəf'ilün* | *müstəf'ilün* | *müstəf'ilün (rəcəz I növ)* |

1. Bir növ təfilənin təkrarı ilə yaranan qəliblər:

***

| | | | |
|---|---|---|---|
| Əcəb yoq, ey | könül, gər zər- | rə tək bitab | ola canum, |
| Gəlibdür möh- | nətabadum- | ğə çün xurşi- | di-tabanum. [4, s.106] |
| *məfA'İlün* | *məfA'İlün* | *məfA'İlün* | *məfA'İlün (həzəc I növ)* |

2. İki növ təfilədən ibarət olan qəliblər:

| | | | |
|---|---|---|---|
| Gözlərüm gir- | yan irür ol | lə'li xəndan- | dın cüda, |
| Rüz(i)garum | tirə ol zül- | fi-pərişan- | din cüda. [4, s.59] |
| *fA'ilAtün* | *fA'ilAtün* | *fA'ilAtün* | *fA'ilün (rəmə II növ)* |

***

| | | | |
|---|---|---|---|
| Eşq atə- | şidə könlüm | müğri-kə- | babə bənzər, |
| Xuni-ci- | gərdin əşkim | gülgün şə- | rabə bənzər. [4, s.70] |
| *məf'Ulü* | *fA'ilAtün* | *məf'Ulü* | *fA'ilAtün (müzare II növ)* |

3. Üç növ təfilədən ibarət olan qəliblər:

| | | |
|---|---|---|
| Canım ne- | cə ola za- | r(ı) sinsiz, |
| Məhcur(ı) | könül fika | r(ı) sinsiz. [4, s.81] |
| *məf'Ulü* | *məfA'ilün* | *fə'Ulün (həzəc XI növ)* |

***

| | | | |
|---|---|---|---|
| Ey gülşə- | ni-hüsn içrə | ləbin qönçe- | yi-xəndan, |
| Vey baği- | lətafətdə | qədüm sərvi- | xuraman. [4, s.116] |
| *məf'Ulü* | *məfA'İlü* | *məfA'İlü* | *fə'Ulün (həzəc VIII növ)* |

4. Dörd növ təlifə əsasında yaranan qəlib:

| | | | |
|---|---|---|---|
| Kövkəb i- | məs bu kim ge- | cələr çərx(i) | saridür, |
| Çərxi-bə- | rinğə baş çə- | kən ahım şə- | raridür. [4, s.76] |
| *məf'Ulü* | *fA'ilAtü* | *məfA'İlü* | *fA'ilün (müzare I növ)* |

Dörd növ təfilədən yaranan bu qəlibli şeirlər Məsihi "Divan"ında yalnız müzare bəhrinin I növündə qələmə alınmışdır. Belə təfiləli nümunələrin qələmə alınması çətin olsa da, Məsihi bu qəlibə uyğun örnəklər yazmaqda da öz qələmini sınamış, vəzn baxımından kamil sənət əsərləri yaratmışdır.

Türk alimi Şevket Baştürkün də qeyd etdiyi kimi [5, s.5], Məsihinin "Divan"ında işlədilən əruz bəhrləri içərisində birinci yerdə rəməl gəlir. Alimin apardığı təhlilə görə, şairin ədəbi irsində yer alan 119 şeir rəməl bəhrində qələmə alınmışdır. Bu nümunələrin isə əsas hissəsi qəzəllərin payına düşür. Belə ki, 101 qəzəl, 10 tuyuq, 3 qitə, 2 məsnəvi, 2 təxmis, 1 müsəddəs qeyd edilən bəhrdə yazılmışdır [5, s.6]. Bir neçə örnəyi nəzərdən keçirək:

| | | | |
|---|---|---|---|
| Zülfüni gör- | gəc könül pey- | da qılur yüz | piçü tab, |
| Ol kəbutər | təkki, etkay | dam içində | iztirab. [4, s.61] |
| *fA'ilAtün* | *fA'ilAtün* | *fA'ilAtün* | *fA'ilün* |

***

| | | |
|---|---|---|
| Bar məzaqum | ki, öpəm lə’- | lün dedüm, |
| Dedi bulma | belə həmsa- | hib məzaq. [4, s.157] |
| *fA’ilAtün (fə’ilAtün)* | *fA’ilAtün (fə’ilAtün)* | *fA’ilün* |

İlk şeir qəzəl, ikinci nümunə isə qitə janrına aid nümunədən götürülmüşdür. Göründüyü kimi, verilən nümunələrin hər ikisi rəməl bəhrindədir. Qəzəl rəməl bəhrinin “dördbölümlü bütöv naqis rəməl” adlanan II növündə, qitə isə “üçbölümlü bütöv rəməl” adlanan III növündə yazılmışdır. Şairin yaradıcılığında rəməl bəhrinin 6 növündən istifadə olunmuşdur.

Məsihinin ən çox müraciət etdiyi ikinci bəhr həzəcdir. Ümumilikdə, şairin qələmindən çıxmış 35 şeir həcəz bəhrində yazılmışdır. Bunlardan 32-si qəzəllərin, 1-i təxmislərin, 1-i tərcibəndlərin, 1-i isə qitələrin payına düşür. Məsihi həzəc bəhrinin müxtəlif növlərinə müraciət edərək gözəl bədii nümunələr ərsəyə gətirmişdir. Bir neçə nümunəyə diqqət edək:

| | | | |
|---|---|---|---|
| Qərəz novru- | zü bayramdin | məŋa görmək | cəmalındur, |
| Mənim novru- | zü bayramım | rüzi-fərxən- | də falındur. [4, s.77] |
| *məfA’İlün* | *məfA’İlün* | *məfA’İlün* | *məfA’İlün* |

***

| | | | |
|---|---|---|---|
| *Gözüm ye-* | *nə talibdür* | *rüxsaru-* | *ŋa sultanum,* |
| *Şövqüm ye-* | *nə qalibdür* | *didaru-* | *ŋa sultanum.* [4, s.109] |
| *məf’Ulü* | *məfA’İlün* | *məf’Ulü* | *məfA’İlün* |

Verilən nümunələrdən birincisi həzəcin birinci, ikincisi isə doqquzuncu növündə qələmə alınmışdır. Məsihi həzəc bəhrinin müxtəlif növlərinə müraciət etmişdir. Baştürk Şevket bunları belə sistemləşdirmişdir: *“Yüz yirmi iki beytlik on yedi gazelini bu bahrin **Mefâ’îlün / Mefâ’îlün / Mefâ’îlün / Mefâ’îlün** kalıbıyla; elli altı beyitlik sekiz gazelini, altı bentlik bir tahmisini bu behrin **Mef’ûlü / Mefâ’îlü / Mefâ’îlü / Fe’ûlün** kalıbıyla; yirmi bir beyitlik üç gazelini, yedi bendlik bir tercî-bendini bu bahrin **Mef’ûlü / Mefâ’îlün / Fe’ûlün** kalıbıyla; on beş beyitlik iki gazelini, iki beyitlik bir kıt’asını bu bahrin **Mefâ’îlün / Mefâ’îlün / Fe’ûlün** kalıbıyla; on dört beyitlik iki gazelini yine bu bahrin **Mef’ûlü / Mefâ’îlün / Mef’ûlü / Mefâ’îlün** kalıbıyla yazmıştır”* [5, s.6].

Məsihinin həzəcdən sonra ən çox müraciət etdiyi bəhr müzaredir. Şair bu bəhrdə on beş şeir nümunəsi qələmə almışdır ki, onların hər biri qəzəl janrındadır.

| | | | |
|---|---|---|---|
| *Qürbətdə* | *vəh ki, qəmğə* | *imiş mübtə-* | *la qərib,* |
| *Ney mübtə-* | *layi-qəm ki,* | *əsiri-bə-* | *la qərib.* [4, s.61] |
| *məf’Ulü* | *fA’ilAtü* | *məfA’İlü* | *fA’ilün* |

Verilən nümunə müzare bəhrinin I növünə uyğun gəlir. Məsihinin çap olunmuş “Divan”ında beytin birinci misrasındakı “vəh” sözü səhvən “də” formasında getmişdir ki, bu da vəznin

pozulmasına gətirib çıxarır. Lakin "Divan"ın əlyazma nüsxəsi ilə tanışlıq göstərir ki, bu söz "vəh"dir. Bu isə nümunədə heç bir vəzn pozuntusu yaratmır.

Məsihinin müraciət etdiyi digər bəhr mütəqaribdir. Şair 83 beytdən ibarət olan "Saqinamə"sini və bir neçə şeirini bu bəhrdə yazmışdır.

| | | | |
|---|---|---|---|
| Gətür sa- | qi, ol ra- | hi-rahət | fəza, |
| Ki, berür | dilü ca- | nə zövqü | səfa. [4, s.145] |
| *fə'Ulün* | *fə'Ulün* | *fə'Ulün* | *fə'Ul* |

"Saqinamə"dən götürülən bu nümunə mütəqarib bəhrinin ikinci növündə qələmə alınmışdır. Yeri gəlmişkən, qeyd edək ki, mütəqarib bəhrinin bu növü eyni zamanda "Şahnamə" ölçüsü də adlandırılır.

Məsihinin müraciət etdiyi əruz bəhrləri sırasında müctəs beşinci sırada gəlir. Məsihi dörd qəzəlini bu bəhrin birinci növündə qələmə almışdır.

| | | | |
|---|---|---|---|
| Ərusi dəh- | r(i) bəsi bi- | vəfa imiş, | bildüm, |
| Vəfa təvəq- | qoyi andin | xəta imiş, | bildim. [4, s.104] |
| *məfA'ilün* | *fə'ilAtün* | *məfA'ilün* | *fə'lün* |

Məsihinin istifadə etdiyi altıncı bəhr xəfifdir. Şair bu bəhrdə iki qəzəl qələmə almışdır.

| | | |
|---|---|---|
| Can fəda tün- | d(i)xu yigit- | larqa, |
| Tünd(i)xu cən- | g(i)cu yigit- | larqa. [4, s.58] |
| *fA'ilAtün* | *məfA'ilün* | *fə'lün* |

Təqdim edilən nümunə xəfif bəhrinin dördüncü növündə qələmə alınmışdır. Üçbölümlü qəlibdə yazılmış bu örnəkdə birinci və sonuncu təfilələr rəməl, ikinci təfilə isə həzəc bəhrinə uyğun gəlir.

Məsihinin iki qəzəli isə onun müraciət etdiyi yeddinci bəhr olan rəcəzdə qələmə alınmışdır. Şairin rəcəz bəhrində yazdığı nümunələr *müstəf'ilün* təfiləsi üzərində qurulmuşdur.

| | | | |
|---|---|---|---|
| Heç kimsə məh- | cur olmasun | mindin diya- | rü yaridin, |
| Avarə xa- | nümanidin | ayru dilü | dildaridin. [4, s.112] |
| *müstəf'ilün* | *müstəf'ilün* | *müstəf'ilün* | *müstəf'ilün* |

Məsihinin müraciət etdiyi əruz bəhrləri içərisində səkkizinci sırada səri gəlir. Şair bu bəhrdə bir qəzəl qələmə almışdır ki, həmin nümunə birinci növə aiddir.

| | | |
|---|---|---|
| Dərdə dəva | eyləmədun, | eyləmi? |
| Rəhm mənə | eyləmədun, | eyləmi? [4, s.127] |
| *müftə'ilün* | *müftə'ilün* | *fA'ilün* |

Məsihinin istifadə etdiyi sonuncu – doqquzuncu bəhr kamildir. Azərbaycan ədəbiyyatında az işlənən bu bəhrdə şairin bir qəzəli vardır. Həmin nümunə *mütəfA'ilün* təfiləsinin təkrarı ilə yaranan dördbölümlü qəlibdə – kamil bəhrinin birinci növündə qələmə alınmışdır.

| | | | |
|---|---|---|---|
| Deməsəm mən, ey | büti-bivəfa | ki, məŋə cəfa | yetər eyləgil, |
| Derəm məhəbbət | əhli ara mə- | ni mübtəla | betər eyləgil. [4, s.101] |
| *mütəfA'ilün* | *mütəfA'ilün* | *mütəfA'ilün* | *mütəfA'ilün* |

Məsihi şeirinin vəznindən danışılarkən şairin rübailərinin vəzni ilə bağlı məqamlara da diqqət yetirmək lazımdır. Məlumdur ki, *"Rübai vəznləri əruz vəzninə daxil deyil. Əruzu ərəblər, rübaini və onun ölçülərini farslar yaratmışlar. Rübainin özünəməxsus şəkli və ölçüləri var"* [3, s.193]. Belə ki, *"Rübai həzəc bəhrinin özəl rübai ölçüləri ilə yazılır. Rübailərdə 24 ölçüdən istifadə olunur. Onların özü də iki qrupa bölünür. Məf'Ulü ilə başlayan 12 ölçü əxrəb, məf'Ulün ilə başlayan 12 ölçü isə əxrəm adlanır. Əxrəm ölçülərində açıq hecaların sayı daha az olduğundan türk dilinin səs sisteminə uyğun sayılmamış, türk şairləri rübaidə daha ahəngdar olan əxrəb ölçülərini işlətməyə üstünlük vermişlər. Rübainin vəzn baxımından bir başqa özəlliyi də vardır. Belə ki, adətən, digər janrlara aid nümunələrin bütün misralarında eyni vəzndən istifadə olunduğu halda, rübainin hər misrası başqa bir vəzndə yazıla bilər. Ancaq nəzərə almaq lazımdır ki, bir rübaidə işlənilən fərqli vəznlər eyni qrupdan olmalıdır. Əgər bir rübaidə əxrəm qrupundan bir vəzn işlənilmişsə, bütün misralarda da əxrəm, əxrəb qrupundan bir vəzn işlənmişsə, bütün misralarda da əxrəb qrupundan vəznlər işlənilməlidir"* [1, s.194].

Məsihi rübailərinin tədqiqi zamanı da məlum olur ki, şair qələmə aldığı bütün rübailəri əxrəb vəznində yazmışdır. Lakin rübailərin misralarında vəzn baxımından müxtəliflik vardır. Şairin yaradıcılığında yalnız bir vəzndən istifadə olunan rübailərlə yanaşı, iki və daha artıq vəzndən istifadə olunan örnəklərə də rast gəlinir. Fikrimizi nümunələrlə əsaslandıraq.

| | | | |
|---|---|---|---|
| Ol qamə- | tü rəftaru- | na qurban o- | layım, |
| Ol zülf i- | lə rüxsaru- | na qurban o- | layım |
| Ol lə'li- | göhərbaru- | na qurban o- | layım |
| Ol naz i- | lə güftaru- | na qurban o- | layım. [4, s.180] |
| *məf'Ulü* | *məfA'İlün* | *məfA'İlü* | *fə'ül* |

Göründüyü kimi, verilmiş nümunənin bütün misralarında yalnız bir vəzndən (*məf'Ulü məfA'İlün məfA'İlü fə'ül*) istifadə edilmişdir.

Aşağıda verilən rübaidə isə iki vəzndən istifadə edilmişdir. Belə ki, birinci və üçüncü misra *məf'Ulü məfA'İlün məf'Ulün fa'*, ikinci və dördüncü misra isə *məf'Ulü məfA'ilün məfA'İlün fa'* vəznindədir.

| | | | |
|---|---|---|---|
| Ta evdi- | n eşitdüm ki, | çıqar ca- | num, |
| *məf'Ulü* | *məfA'İlün* | *məf'Ulün* | *fa'* |
| Müştaq i- | di anqa di- | deyi-girya- | num, |
| *məf'Ulü* | *məfA'ilün* | *məfA'İlün* | *fa'* |
| Həsrət bi- | lə intizar | tartıb dur- | dum, |
| *məf'Ulü* | *məfA'İlün* | *məf'Ulün* | *fa'* |
| Eşigi- | də ol qədər | ki, çıxdı ca- | num. [4, s.179] |
| *məf'Ulü* | *məfA'ilün* | *məfA'İlün* | *fa'* |

Məsihi rübailərinin vəzni, ümumilikdə, orta əsrlər Azərbaycan ədəbiyyatında qələmə alınmış rübai vəznləri ilə eyniyyət təşkil edir. Şairin rübailərində müşahidə olunan vəzn müxtəlifliyi dövrün bütün ədəbi nümunələrində özünü göstərir.

## Nəticə / *Conclusion*

Beləliklə, Məsihi şeirlərinin vəzn baxımından tədqiqi göstərir ki, şairin öz yaradıcılığında Azərbaycan ədəbiyyatında işlənmiş 12 əruz bəhrinin 9-dan istifadə etmişdir. Eyni mənzərə həmin dövrdə yazıb-yaratmış digər şairlərin yaradıcılığında da müşahidə olunur. Şairin əsərlərinin vəzn cəhətdən öyrənilməsi orta əsrlər Azərbaycan ədəbiyyatında əruz vəzninin işlənmə dərəcəsini və ona məxsus bəhrlərin istifadə tezliyini izləmək baxımdan da əhəmiyyətlidir.

## Ədəbiyyat / *References*


1. Alkır Y., Şentürk P. Aruz hakkında herşey. https://www.academia.edu/7440866/Aruz_Hakk%C4%B1nda_Her_%C5%9Eey
2. Baştürk Ş. Mesîhî-Tebrizî: hayatı, edebî şahsiyeti, eserleri ve dîvânının incelenmesi: / Yüksek Lisans Tezi, Türk Dili ve Edebiyatı Anabilim Dalı / – Afyon Kocatepe Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2006, 264 s.
3. Cəfər Ə. Rübai vəznləri haqqında // Məhəmməd Füzuli. Seçilmiş əsərləri (Tərtib edəni: Ə.S.Cəfər). – Bakı: 1984.
4. Məsihi. Divan (tərtib edən: Ə.Səfərli). – Bakı: Elm, 2012, 480 s.
5. Mirzəyev A. Məhəmməd Füzulinin rübailəri // Məhəmməd Füzuli: Həyatı və yaradıcılığı (kollektiv). – Bakı: Elm, 2025.
6. Mirzəyev A. Nəsiminin Azərbaycan – türk "Divan"ının vəzn və qafiyə sistemi // Böyük Azərbaycan şairi İmadəddin Nəsimi (kollektiv) / red. İ.Ə.Həbibəyli. – Bakı: Elm, 2019, 388 s.

## Метрическая система стиха Месихи Тебризи

**Пари Гумбатова**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: hasanlipari@gmail.com
Orcid: 0000-0001-9707-7722

**Резюме.** Одним из основных поэтических элементов, создающих гармонию в диванной литературе, является размер. Исследование классической литературы показывает, что аруз-метр занимает особое место в литературном наследии каждого поэта. В этом контексте творчество Месихи Тебризи вызывает особый интерес. Наблюдения, проведённые над его поэтическим наследием, свидетельствуют о том, что поэт создавал свои произведения, используя 9 из 12 бахров, применяемых в азербайджанской поэзии, написанной на арузе. Бахры, использованные Месихи, включают: рамаль, хаджаз, раджаз, мутакариб, музари, муджтаз, хафиф, сари‘ и камиль. Среди них наибольшее предпочтение поэт отдавал бахру рамаль. В статье поэтические шаблоны, к которым обращался Месихи Тебризи, классифицированы как по количественным, так и по качественным признакам и подкреплены соответствующими примерами. Особое внимание также уделено рубаи поэта с точки зрения метрической структуры. Все рубаи Месихи написаны в размере ахреб. Исследование показывает, что строки рубаи отличаются метрическим разнообразием. Наряду с примерами, написанными в одном размере, встречаются также рубаи, в которых используются два и более метра.
**Ключевые слова:** Месихи Тебризи, размер, бахр, тафила, поэтический шаблон, рубаи